# Akif ABBASOV-75



Hörmətli Akif müəllim!

Sizi 75 illik yubileyiniz münasibətilə təbrik edirik.

Siz 28 may 1950-ci ildə Şirvan şəhərində anadan olmusunuz.

Sizin yaradıcılığınız çoxşaxəlidir. Kənd müəllimi də olmusunuz, ali məktəb müəllimi də. Sabirabad rayonunun Şıxsalahlı və Qaragüney kənd məktəblərində ingilis dili müəllimi, Bakı Qızlar Universitetində Pedaqogika müəllimi işləmisiniz.

Fəlsəfə elmləri doktoru, professorsunuz.

Hazırda Təhsil İnstitutunun "Elmi əsərlər" jurnalının baş redaktorusunuz.

"Aldanma sözlərə", "Acı xatirələr", "Samsundan başlanan yol", "Sultan II Murad", "Fateh Sultan Məhmət" romanlarının; "Əliş və Anna", "Ananın ürəyinə gedən yol", "Dar günün dostu" povestlərinin, "Atatürk", "Yaxşı yoldaş" pyeslərinin, çoxsaylı hekayə kitablarının müəllifisiniz. "Atatürk" pyesiniz Ankarada Türkiyə türkcəsində çap olunub. Həmin pyes əsasında Babək Abbaszadə leberetto yazmış, bəstəkar Oqtay Rəcəbov "Atatürk" operası yaratmışdır.

Ernest Heminquey, Morli Kallaqan, Albert Malts, Stiven Likok, Qrehem Qrin, Somerset Moem və b. Amerika, ingilis, Kanada yazıçılarının povest, pyes və hekayələrini ingilis dilindən dilimizə çevirmisiniz. İngilis və rus dillərindən etdiyin bədii tərcümələr işıq üzü görmüş 11 kitabda toplanmışdır.

Q.Qrinin "Canlılar yaşayan otaq" psixoloji dramını, S.Moemin "Yolagəlməz qadın", "Edvard Barnardın ruh düşkünlüyü" və "Yağış" povestlərini ingiliscədən; Touşan Esenovanın "Ali təıhsilli arvad", "Mar Bayciyevin "Duel", Georgi Xuqayevin "Andro və Sandro" pyeslərini azərbaycancaya tərcümə etmisiniz.

Yaradıcılığınızın bir istiqaməti də kino yaradıcılığı ilə əlaqədardır. "Canavar balası" (1997) və "Qırmızı qar" (1998) bədii filmlərinin redaktoru olmusunuz.

Respublikanın Əməkdar müəllimisiniz, "Tərəqqi" medalına, Heydər Əliyev yubiley medalına layiq görülmüsünüz.

Hörmətli Akif müəllim!

Sizi bir daha 75 illik yubileyiniz münasibətilə təbrik edir, yaradıcılığınızda yeni uğurla arzulayırıq.

**Azərbaycan Yazıçılar Birliyi**